# İslam SADIQ - 70



Hörmətli İslam Sadıq!

Sizi - tanınmış şair və ədəbiyyatşünas alimi 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 16 oktyabr 1953-cü ildə Tovuz rayonunun Samanlıq kənd orta məktəbinin 10-cu sinfini, 1978-ci ildə Azərbaycan Aqrar Akademiyasını, 1986-cı ildə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirmisiniz.

Bir müddət orta məktəbdə laborant, direktor müavini, Kənd Təsərrüfatı Nazirliyində baş mütəxəssis, 1990-1992-ci illərdə "Fəryad" və "Azərbaycanın səsi" qəzetlərinin baş redaktoru vəzifələrində çalışıbsınız. 1984-cü ildən Azərbaycan Dövlət Nəşriyyatında kiçik redaktor, redaktor, böyük redaktor, baş redaktor, redaksiya müdiri işləmisiniz. Hazırda böyük redaktor kimi fəaliyyətinizi davam etdirirsiniz. Siz "Koroğlu" dastanını fundamental şəkildə tədqiq edibsiniz. 2007-ci ildə "Azərbaycan folklorunda Koroğlu poetik ənənəsi" mövzusunda namizədlik dissertasiyası müdafiə edibsiniz.

Siz erməni tarixinin bilicisisiniz. Erməni qələmi ilə saxtalaşdırılmış çoxsaylı tarixi faktları üzə çıxarıbsınız, Şumer ədəbiyyatının Azərbaycanda ilk tədqiqatçılarındansınız. "Şumer epik mətnləri və türk xalq yaradıcılığı ənənələri" mövzusunda doktorluq dissertasiyası müdafiə edibsiniz. Bu iş Azərbaycanda Şumer mövzusunda ilk doktorluq dissertasiyasıdır.

Siz onlarla beynəlxalq konfranslarda iştirak edibsiniz. Əsərləriniz Türkiyədə, Rusiyada, Ukraynada, Şimali Kiprdə, ABŞ-da və s. ölkələrdə nəşr edilib.

İyirmidən çox şeir kitabınız nəşr olunub.

Səməd Vurğunun aforizmlərini toplayıb tərtib etmiş, geniş ön sözlə 1987 və 2006-cı illərdə nəşr etdiribsiniz.

Əsərlərinizin 32 cilddən ibarət nəşri başlayıb. Onlardan ilk dörd cild artıq işıq üzü görüb. Azərbaycan Dövlət Nəşriyyatındakı 40 illik fəaliyyətiniz dövründə 2000-ə qədər kitabın redaktoru olubsunuz. 50-dən çox kitabın, 500-dən çox elmi və elmi-publisistik məqalənin müəllifisiniz.

Hörmətli İslam müəllimi, sizi bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, sizə sağlam ömür, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

№40 Ədəbiyyat qəzeti.- 2023- cü il.- 21 oktyabr.- S. 26.